# Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nə və "Gömrük tarifi haqqında" Qanununa uyğun olaraq gömrük tarifləri mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, sahibkarlıq fəaliyyətinin, ölkədə rəqabətədavamlı məhsulların istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

~~1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin təqdim etdiyi və əlaqədar təşkilatlarla razılaşdırılmış "Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı" təsdiq edilsin.~~[1]

2 Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturası malların beynəlxalq təcrübədə qəbul olunmuş təsnifat sisteminə uyğun olaraq aparılsın.

~~3. Müəyyən edilsin ki, ixrac olunan mallar, onların növlərindən asılı olmayaraq, gömrük ixrac rüsumuna cəlb olunmur~~[2].

*4. Müəyyən edilsin ki, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinə uyğun olaraq aşağıdakılar idxal gömrük rüsumuna cəlb olunmur:*[3]

~~4.1. birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus olan müəssisənin yaradılması üçün gətirilən əmlak;~~[4]

~~4.2. xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak (respublikaya qoyulmuş investisiyanın dəyəri və miqdarı, habelə iş görənin arayışı gömrük orqanlarına təqdim olunmaqla);~~[5]

~~4.3. Beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları əvəzsiz maliyyə və texniki yardımları, qrantlar hesabına idxal olunan mallar;~~~~[6]~~

4.4. təmənnasız paylanılması üçün humanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar.[7]

*4.5-1* fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmik-müşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün *Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin* təsdiqedici sənədi əsasında idxal olunan xüsusi texniki vasitələr, avadanlıqlar, cihazlar, alətlər, komplektləşdirici məmulatlar, ehtiyat hissələri, ləvazimatlar və materiallar.[8]

4.6. Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq Azərbaycan Respublikasına verilməsi nəzərdə tutulan əsas fondların, daşınar əmlakın və digər aktivlərin Azərbaycan Respublikasının Dövlət Neft Fonduna və ya hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslərə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar.[9]

[10]4.7. Azərbaycan Respublikası vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onların fərdiləşdirilməsi, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat- axtarış sisteminin yaradılması və tətbiqi, əl-barmaq izlərinin, güllə və gilizlər üzərindəki izlərinmüəyyən edilməsi üçün gətirilən avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, polisə telefon zənglərinin qəbulu üzrə xüsusi "102" xidmətinə - Zəng Mərkəzi Sisteminə (ZMS) daxil olan avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə turizm sahəsində olan investisiya layihələrinin həyata keçirilməsi üçün, ehtiyaclarını yerli xammal və materiallar hesabına ödəmək mümkün olmadıqda, layihə çərçivəsində idxal edilən mallar.[11]

4.8. lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumlarından azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası üzrə siyahısı təsdiq edilsin (əlavə olunur).[12]

4.11. ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıq və materiallar (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə).[13]

4.13. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələr tərəfindən müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr.[14]

~~4.14. Xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla).~~~~[15]~~

~~4.15. milli yığma komandaların hazırlığı ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları.~~~~[16]~~

~~4.15. Azərbaycan Respublikasının Dövlət Taxıl Fonduna tədarük edilməsi məqsədi ilə idxal olunan taxıl və taxıl emalı məhsulları.~~~~[17]~~

*4.15-1. Azərbaycan Respublikasının Dövlət Taxıl Fonduna tədarük edilməsi məqsədilə idxal olunan taxıl və taxıl emalı məhsulları.*[18]

4.16. "Azərbaycan Milli Elmlər Akademiyasının təsdiqedici sənədi əsasında idxal gömrük rüsumundan azad olunan elmi cihazların və avadanlıqların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİF MN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).[19]

4.17. "Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxal gömrük rüsumundan azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturu (XİF MN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).[20]

4.18. Beynəlxalq standartlara cavab verən su nəqliyyat vasitələrini istehsal edən strateji əhəmiyyətli sənaye müəssisələrinin

tikintisi üçün layihə çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təsdiqedici sənədləri əsasında idxal olunan mal və avadanlıqlar.[21]

4.18. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən alınan qeydiyyat şəhadətnamələri, sürücülük vəsiqələri, qeydiyyat nişanları, xidmətlə bağlı digər blanklar və büdcə vəsaiti hesabına idxal olunan avadanlıqlar.[22]

4.20. İstehsal gücü gündə 5000 (beş min) ton klinker və ya ildə 2 (iki) milyon ton sement təşkil edən və APİ (American Petroleum İnstitute) standartlarına cavab verən quyu-tamponaj sementi istehsal edən sement zavodlarının tikintisi üçün layihə çərçivəsində idxal olunan mallar, materiallar və avadanlıqlar.[23]

4.21. Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün idxal olunan qızıl. [24]

4.22. "*Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin* təsdiqedici sənədləri əsasında~~, alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətinə xüsusi icazə verilmiş şəxslər tərəfindən~~ gömrük rüsumlarından azad olunmaqla idxal edilən, ~~alternativ və~~ bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).[25]

*4.23. "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).*[26]

*4.24. Azərbaycan Respublikasının 2016-cı il üzrə yanacaq-enerji balansına uyğun olaraq Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədləri əsasında "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə elektrik enerjisinin istehsalı üçün idxal olunan mazut.*[27]

~~*4.25. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamına əsasən yaradılmış Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 5 il müddətinə.*~~[28]

*4.26. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, DVB-T və DVB-T2 standartına uyğun rəqəmli televiziya yayımı üçün avadanlıqlar və onlara aid ötürücü anten fider sistemləri, həmçinin rəqəmli qəbuledici (çevirici) qurğular.*[29]

*4.27. Azərbaycan Respublikasının 2017-ci il üzrə yanacaqenerji balansına uyğun olaraq, Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədləri əsasında "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə elektrik enerjisinin istehsalı üçün idxal olunan mazut.*[30]

*4.28. "Velosiped istehsalı məqsədi ilə gömrük rüsumlarından azad olunmaqla idxal edilən ehtiyat hissələrinin xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).*[31]

*4.29. "Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxal gömrük rüsumlarından azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).*[32]

*4.30. Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar.*[33]

*4.31. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiq-edici sənədi əsasında yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinlərin və həmin vaksinlər üçün nəzərdə tutulmuş şprislərin idxalı - 2021-ci il yanvarın 1-dən 2 il müddətinə.*[34]

*4.32. "Füzuli, Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi üçün idxal edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur). Bu bəndlə müəyyən edilən mal nomenklaturasına müvafiq idxal olunan malların Füzuli, Laçın və Zəngilan beynəlxalq hava limanlarının tikintisi üçün istifadəsinin təsdiq edilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilir.*[35]

~~*4.33. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalar və müharibənin partlayıcı qalıqlarından təmizlənməsi üçün idxal edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur). Bu bəndlə müəyyən edilən mal nomenklaturasına müvafiq idxal olunan malların Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalar və müharibənin partlayıcı qalıqlarından təmizlənməsi üçün istifadəsinin təsdiq edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı tərəfindən həyata keçirilir.*~~[36]

~~5. Müəyyən edilsin ki, mənşə ölkəsindən asılı olmayaraq bu qərarın «Azərbaycan Respublikası ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri» barədə əlavəsində göstərilən mallara idxal gömrük rüsumu onların Xarici İqtisadi Fəaliyyətin Əmtəə Nomenklaturasına uyğun kodlar üzrə müvafiq dərəcələrlə, həmin əlavədə göstərilməyən digər mallara isə gömrük dəyərinin 15 faizi həcmində gömrük idxal rüsumu tətbiq olunur.~~[37]

6. Müəyyən edilsin ki, dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların, hüquqi və fiziki şəxslərin xətti ilə təmənnasız paylanılması üçün humanitar yardım kimi gətirilən malların gömrük rəsmiləşdirilməsində, həmin malları

gətirən humanitar təşkilatlar Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçməsi barədə sənədi, digər hüquqi və fiziki şəxslər isə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığını gömrük orqanlarına təqdim etməlidirlər.[38]

7. Azərbaycan Respublikasının xarici dövlətlərlə azad ticarət və kooperasiya haqqında sazişlərində malların idxalına gömrük idxal rüsumunun qarşılıqlı surətdə tətbiq edilməməsi nəzərdə tutulduqda, idxal olunan mallara gömrük idxal rüsumu tətbiq edilmir.[39]

8. Müəyyən edilsin ki, bu Qərarın4.1; 4.2; 4.3 və 4.4 yarımbəndlərində göstərilən malların sərbəst tədavülə buraxılması üçün, həmin mallar yenidən bəyan olunmalı və gömrük idxal rüsumları ödənilməlidir. Əks təqdirdə, malları satanlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülür.[40]

Bu bəndin icrasına nəzarət Dövlət Gömrük Komitəsi, Ticarət Nazirliyi və Baş Dövlət Vergi Müfəttişliyi, büdcə təşkilatları üzrə isə Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

9. İdxal əməliyyatları üzrə alınan gömrük rüsumlarının dövlət büdcəsinə tam həcmdə və vaxtında köçürülməsi Dövlət Gömrük Komitəsi və müvəkkil banklar tərəfindən təmin edilsin.[41]

10. Dövlət Gömrük Komitəsi bu Qərarın icrası ilə əlaqədar müvafiq təlimatlar hazırlasın, Maliyyə Nazirliyi ilə razılaşdıraraq mövcud qaydada təsdiq etsin və zəruri tədbirlər həyata keçirsin.[42]

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 16 iyun tarixli 62 nömrəli qərarı, həmin qərarın 9-cu bəndi istisna olmaqla və 1997-ci il 15 iyul tarixli 79 nömrəli qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 5 avqust tarixli 167 nömrəli qərarının 1-ci bəndinin 5-ci və 6-cı abzasları və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 30 oktyabr tarixli 218 nömrəli qərarının 1-ci bəndinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına aid olan hissələri qüvvəsini itirmiş hesab edilsin.[43]

12. Bu qərar imzalandığı gündən qüvvəyə minir.[44]

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 22 aprel 1998-ci il
91

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarı ilə

TƏSDİQ EDİLMİŞDİR[45]

-
-

**GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİNƏ GÖRƏ ALINAN GÖMRÜK YIĞIMLARININ MİQDARI**

-

1. Mal qismində Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən nəqliyyat vasitələri də daxil olmaqla malların, o cümlədən müşayiət olunmayan baqajda, beynəlxalq poçt göndərişlərində keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinə görə gömrük dəyərinin 0,15 faizi miqdarında (10 ABŞ dollarından az olmayaraq), Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında hasilatın pay bölgüsü haqqında sazişlərə əsasən Azərbaycan Respublikasının payına düşən mənfəət karbohidrogenlərinin neft kəməri vasitəsilə ixracı üzrə hər bir yük gömrük bəyannaməsi üçün ixrac olunan malın dəyərindən asılı olmayaraq 275 ABŞ dolları miqdarında Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımları alınır.

2. Azərbaycan Respublikasının gömrük sərhədindən qrant haqqında müqaviləyə (qərara) əsasən qrant kimi alınan maddi yardım, humanitar və texniki və texniki yardım məqsədi ilə, habelə Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərin rəsmi və onların heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar və nəqliyyat vasitələri, elektrik enerjisinin qarşılıqlı ötürülməsi üzrə gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınmır.

3. Gömrük Yük Bəyannaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məbləğində Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənc alınır.

4. Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə Tranzit Yük Bəyannamələri üçün 10 ABŞ dolları miqdarında Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımları alınır.

5. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə:

- yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün 20 ABŞ dolları;
- digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə uyğun olaraq manatla ödənc alınır.

6. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük orqanlarının iş vaxtından kənar vaxtda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına

1 NÖMRƏLİ ƏLAVƏ[46]

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNƏ GƏTİRİLƏN VƏ GÖMRÜK İDXAL RÜSUMUNA CƏLB OLUNMAYAN MALLARIN SİYAHISI**

| Xarici iqtisadi fəaliyyət üzrə malların nomenklaturasına uyğun mal qrupları | Xarici iqtisadi fəaliyyət üzrə malların nomenklaturasına uyğun mal qruplarının adı və malların kodları |
|---|---|
| 1 | 2 |
| Qrup 25 | Duz, kükürd, torpaq və daş, əhəng və sement - mal qrupundan yalnız 250100310; 250100510; 2502; 2503; 2504; 2505; 2506; 2507; 250830; 2509; 2510; 2511; 251311; 251690010; 2518; 251990900; 2521; 2524; 2527; 2528; 252910; 253010 mal mövqeləri |
| Qrup 26 | Filizlər, şlaklar və küllər |
| Qrup 27 | Mineral yanacaq, neft və neft emalının məhsulları - mal qrupundan yalnız 270111; 270112; 270710900; 270720900; 2708; 271000210; 271000910; 271000990; 271210100; 271220, 2716 mal mövqeləri |
| Qrup 28 | Qeyri-üzvi kimya məhsulları - |
| Qrup 29 | Üzvi kimya birləşmələri |
| Qrup 30 | Əczaçılıq məhsulları |
| Qrup 34 | Sabun, səthi-aktiv üzvi maddələr, yuyucu maddələr, sürtgü materialları, süni hazır mumlar, şam və bənzəri məmulat, yapma pastaları, plastilin, diş həkimi üçün əsası gips olan birləşmələr - mal qrupundan yalnız 340211; 340213; 340490900; 340590100 mal mövqeləri |
| Qrup 35 | Zülali maddələr, nişasta, yapışqanlar, mayalar (fermentlər) mal qrupundan yalnız 350520100 - 350520900; 350699 mal mövqeləri |
| Qrup 36 | Partlayıcı maddələr, pirotexnik məmulatları, kibrit, pirofer xəlitələr, bəzi alışqan maddələr mal qrupundakı 3604; 3605 mal mövqelərindən başqa |
| Qrup 37 | Foto və kino malları qrupundan yalnız 370210000 (rentgen aparatları üçün plyonka) mal mövqeyi |
| Qrup 38 | Başqa kimyəvi məhsullar - mal qrupundakı 3805; 3819; 3820 mal mövqelərindən başqa |
| Qrup 39 | Plastik kütlələr və onlardan hazırlanmış məmulatlar mal qrupundan yalnız 390110100; 390110900; 390120000; 390210; 3903; 390410000; 390511; 390710; 390720; 390730000; 390740; 390810; 390940; 391110; 391220190; 391520; 391732350; 392010900; 392030000; 392113; 392119900; 392350100 mal mövqeləri |
| Qrup 40 | Kauçuk və rezin məmulatı - mal qrupundan yalnız 400122000; 400129; 400211000; 400220; 400821900; 4010; 401130100; 401700110 mal mövqeləri |
| Qrup 44 | Oduncaq və oduncaq məmulatı, ağac kömürü mal qrupundan yalnız 4406 mal mövqeyi |
| Qrup 45 | Mantar (tıxac) və ondan məmulatlar mal qrupundan yalnız 450310000 mal mövqeyi. |
| Qrup 47 | Oduncaqdan və ya bitki mənşəli başqa lifli materiallardan kağız kütləsi, kağız və karton tullantıları və makulatura - mal qrupundakı 4707 mal mövqeyindən başqa |
| Qrup 49 | Nəşr olunmuş kitab, qəzet, reproduksiya və poliqrafiya sənayesinin digər məmulatları, əlyazmalar, makinada çap olunmuş mətnlər və planlar - mal qrupundan yalnız 4901; 4902; 4903; 4904; 4905 və 4906 mal mövqeləri |
| Qrup 51 | Yun, heyvanların nazik və qaba tükləri mal qrupundan yalnız 510710100; 510720100 mal mövqeləri |
| Qrup 69 | Odadavamlı kərpiclər, bloklar, lövhələr və analoji odadavamlı keramik materiallar mal qrupundan yalnız 6902; 6903 mal mövqeləri |
| Qrup 70 | Şüşə və şüşə məmulatı mal qrupundan yalnız 7002; 7008; 7010; 701910100; 701910510 mal mövqeləri |
| Qrup 72 | Qara metallar mal qrupundan yalnız 7201 mal mövqeyi |
| Qrup 74 | Mis və mis məmulatı - mal qrupundakı 7412; 7417; 7418; 7419 mal mövqelərindən başqa |
| Qrup 75 | Nikel və nikel məmulatı |
| Qrup 76 | Alüminium və alüminium məmulatı mal qrupundakı 7610; 7611; 7612; 7613; 7615; 7616 mal mövqelərindən başqa |
| Qrup 78 | Qurğuşun və qurğuşun məmulatı |
| Qrup 79 | Sink və sink məmulatı |
| Qrup 80 | Qalay və qalay məmulatı |

| | |
|---|---|
| Qrup 81 | Başqa adi metallar, metal keramika və onlardan hazırlanmış məmulatlar mal qrupundakı yalnız 8101; 8102; 810890100 mal mövqeləri |
| Qrup 83 | Qeyri-qiymətli metallardan digər mal mövqelərində göstərilməyən məmulatlar mal qrupundan yalnız 8309 mal mövqeyi |
| Qrup 84 | Nüvə reaktorları, qazanları, avadanlıq və mexaniki cihazları, onların hissələri mal qrupundakı 841451 900; 841510000; 841581 900; 8417 20; 841810 900; 841821 - 841829000; 841830910; 841830990; 841840910; 841840990; 841850; 841891000; 841899900; 842211000; 8423 10 100; 8423 81 500; 8450; 845210; 8469; 8470; 8471 10; 847120100 847120600; 847191400-847191900; 8471998472; 8473; 8476 mal mövqelərindən başqa |
| Qrup 85 | Elektrik maşınları və avadanlığı, onların hissələri mal qrupundakı 8507 10 910; 8508 10; 8509; 8510; 8511; 8512; 8513; 8516; 8517 10; 8517 20; 8517 81 100; 851810 - 851840100; 851840910-851850100; 8519; 8520; 8521; 8522; 8523; 8524; 852510900; 852520900; 852719000; 8527 21; 8527 31; 852732; 852739; 8528; 852910200-852910900; 8539; 854411900; 854419; 854419900; 854430900; 854511-854519900; 854590 mal mövqelərindən başqa |
| Qrup 86 | Dəmir yolu lokomotivləri və vaqonları, tramvay, onların hissələri və ləvazimatı, dəmir yolu və tramvay şəbəkəsi üçün yol qurğuları |
| Qrup 87 | Yerüstü (dəmir yolu və tramvay vasitələrindən başqa) nəqliyyat vasitələri mal qrupundakı 8702; 8703; 8711; 8712; 8714 mal mövqelərindən başqa |
| Qrup 88 | Uçuş aparatları, kosmik aparatları, onların hissələri |
| Qrup 89 | Gəmi, qayıq və başqa üzən vasitələr mal qrupundakı 8903 mal mövqeyindən başqa |
| Qrup 90 | Optik, fotoqrafiya, kinematoqrafiya, ölçü, nəzarət, yüksək dəqiqlikli tibb və cərrahlıq cihazları və aparatları və onların hissələri, ləvazimatları 9004; 9006 mal mövqelərindən başqa |
| Qrup 93 | Silah və sursatlar, onların hissələri mal qrupundakı yalnız 9301; 9302; 9305; 9306 mal mövqeləri |
| Qrup 97 | Sənət əsərləri, kolleksiya və əntiq əşyalar |

- -

İşlər müdiri A. HACIYEV

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına

2 NÖMRƏLİ ƏLAVƏ [47]

**AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNƏ GƏTİRİLƏN VƏ GÖMRÜK DƏYƏRİNİN 5 FAİZİ HƏCMİNDƏ GÖMRÜK İDXAL RÜSUMUNA CƏLB OLUNAN**

**MALLARIN SİYAHISI**

| Xarici iqtisadi fəaliyyət üzrə malların nomenklaturasına uyğun mal qrupları | Xarici iqtisadi fəaliyyət üzrə malların nomenklaturasına uyğun mal qruplarının adı və malların kodları |
|---|---|
| Qrup 01 | Canlı heyvanlar (damazlıq heyvanlar istisna olmaqla) |
| Qrup 10 | Taxıl və dənli bitkilər |
| Qrup 11 | Un və yarma sənayesi məhsulları, maya, nişasta, inulin, buğda özlüyü mal qrupundan yalnız 110813 mal mövqeyi |
| Qrup 13 | Şellak, kitrələr, qatranlar və bitki şirələri və cövhərləri qrupundan yalnız 130220100; 130231000 mal mövqeləri |
| Qrup 15 | Heyvan və bitki mənşəli piylər və yağlar; onların parçalanmasından əmələ gələn məhsullar; hazırlanmış ərzaq piyləri; heyvan və bitki mənşəli mumlar mal qrupundan yalnız 151190910 mal mövqeyi |
| Qrup 25 | Duz, kükürd, torpaq və daş, əhəng və sement mal qrupundan yalnız 252010000; 252020 mal mövqeləri |
| Qrup 32 | Aşılayıcı və boyayıcı cövhərlər, boyaq maddələri, rəng və laklar, taninlər və onlardan törəmələr, müxtəlif mastikalar, mürəkkəb (mətbəə rəngi) mal qrupundan yalnız 3204; 320810; 320890100; 320890910 mal mövqeləri |

| | |
|---|---|
| Qrup 44 | Oduncaq və oduncaq məmulatı, ağac kömürü, 4406 mal mövqeyindən başqa |
| Qrup 45 | Mantar (tıxac) və ondan məmulatlar - mal qrupundakı 450310000 mal mövqeyindən başqa |
| Qrup 48 | Kağız, karton və onlardan düzəldilmiş məmulat mal qrupundakı 4803; 4810; 4814; 4817; 481810 - 481830000; 481920 - 481960000; 4820 mal mövqelərindən başqa |
| Qrup 51 | Yun, heyvanların nazik və qaba tükləri mal qrupundan yalnız 510130000 mal mövqeyi |
| Qrup 52 | Pambıq mal qrupundan yalnız 5203; 5205; 520614000; 520615; 520811900 mal mövqeləri |
| Qrup 53 | Başqa bitki mənşəli toxuculuq lifləri, kağız lifi və ondan hazırlanmış parça |
| Qrup 54 | Kimyəvi saplar |
| Qrup 55 | Kimyəvi ştapel lifləri |
| Qrup 59 | Hopdurulmuş və yeri təkrarən doldurulmuş toxuma materialları, bunlardan düzəldilmiş texniki məmulat mal qrupundan yalnız 590210900; 591140000 mal mövqeləri |
| Qrup 68 | Daş məmulatları, gips, sement,<br>asbest, mika (slyuda) və bunlardan düzəldilmiş məmulatlar mal qrupundan yalnız 680610; 6814 mal mövqeləri |
| Qrup 70 | Şüşə və şüşə məmulatları qrupundan yalnız 7001; 7006; 7007; 702000100 mal mövqeləri |
| Qrup 71 | Təbii və ya yetişdirmə mirvari, qiymətli və ya yarımqiymətli daşlar, metallar, qiymətli metallarla örtülmüş metallar və bunlardan hazırlanmış məmulatlar mal qrupundan yalnız 710210000 mal mövqeyi; |
| Qrup 72 | Qara metallar (7201 mal mövqeyi istisna olmaqla) |
| Qrup 73 | Q a r a metallardan məmulatlar mal qrupundakı 7323 mal mövqeyindən başqa |
| Qrup 84 | Nüvə reaktorları, qazanları, avadanlıq və mexaniki cihazları, onların hissələri - mal qrupundan yalnız 847120100; 847120900; 847329000; 847330000 mal mövqeləri |
| Qrup 87 | Yerüstü (dəmir yolu və tramvay vasitələrindən başqa) nəqliyyat vasitələri - mal qrupundan yalnız 870290110; 870290190 mal mövqeləri |

- -

İşlər müdiri A. HACIYEV

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına
ƏLAVƏ
(Azərbaycan Respublikasının Nazirlər Kabinetinin
1999-cu il 27 fevral tarixli 25 nömrəli qərarının mətnində) [48]

## AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNƏ GƏTİRİLƏN MALLAR ÜZRƏ GÖMRÜK İDXAL RÜSUMLARININ DƏRƏCƏLƏRİ

| MDB dövlətlərin xarici iqtisadi fəaliyyətinin mal nomenklaturasına uyğun malların kodu | Malın adı | İdxal rüsumlarının dərəcələri 1 ölçü vahidi üçün avro və ya gömrük dəyərinə görə faizlə |
|---|---|---|
| | **Qrup 01** | - |
| 010111000 | Damazlıq heyvanlar | 0 |
| 010210100 | Cins iribuynuzlu heyvanlar | 0 |
| 010310000 | Cins donuz | 0 |
| 010410100 | Cins qoyun | 0 |
| 010420100 | Cins keçi | 0 |
| 010511190 | Cins damazlıq cücələri (çəkisi 185 q-dan artıq olmayanlar) | 0 |
| - | **Qrup 04** | - |
| 040229110 | Südəmər uşaqlar üçün çəkisi 500 q-dan artıq olmayan qablaşdırılmış süd | 0 |
| - | **Qrup 05** | - |
| 0510 | Əczaçılıq üçün heyvan mənşəli məhsullar | 0 |
| 051110000 | Bioloji preparatlar | 0 |
| 051199500 | İri buynuzlu heyvanların embrionları | 0 |

| | | |
|---|---|---|
| - | **Qrup 07** | - |
| 070110000 | Kartof əkin üçün:<br>mövsümi olaraq yalnız oktyabr-noyabr və fevral-mart ayları üzrə<br>qalan aylar üzrə | 0<br>15% |
| 071290110 | Qarğıdalı əkin üçün | 0 |
| 071310100 | Noxud əkin üçün | 0 |
| 071320100 | Nuq əkin üçün | 0 |
| 071331100 | "Winga mungo" növlü lobya əkin üçün | 0 |
| 071332100 | Qırmızı kiçik lobya əkin üçün | 0 |
| 071333100 | Adi lobya əkin üçün | 0 |
| 071339100 | Digər lobya növləri əkin üçün | 0 |
| 071340100 | Mərci əkin üçün | 0 |
| 071350100 | Yem paxlaları əkin üçün | 0 |
| 071390100 | Digər paxlalar əkini üçün | 0 |
| - | **Qrup 08** | - |
| 080520 | Naringi:<br>mövsümi olaraq oktyabr-dekabr və yanvar-fevral ayları üzrə qalan aylar üzrə | 1 kq üçün<br>0,1 avro<br>15% |
| 0807 | Yemiş, qarpız | 15%; 1 kq<br>0,1 avrodan az olmamaq şərtilə |
| 0808 | Alma, heyva, armud | 15%; 1 kq<br>0,1 avrodan az olmamaq şərtilə |
| - | **Qrup 09** | - |
| 0902 | Çay | 15%; 1 kq<br>0,5 avrodan az olmamaq şərtilə |
| - | **Qrup 10** | - |
| 1001 | Buğda | 5% |
| 100300100 | Arpa əkin üçün | 0 |
| 100510-100510190 | Qarğıdalı əkin üçün | 0 |
| 100610100 | Düyü əkin üçün | 0 |
| 100700100 | Darı hibridləri əkin üçün | 0 |
| 100830000 | Bülbülotu toxumu | 0 |
| 1008 | Qarabaşaq | 5% |
| 100300900 | Arpa | 5% |
| - | **Qrup 11** | - |
| 110720000 | Qovurulmuş səməni | 0 |
| - | **Qrup 12** | - |
| 12<br>121291 | Toxumlar, saman, furaj<br>Şəkər çuğunduru | 0<br>15% |
| - | **Qrup 13** | - |
| 130220100<br>13023100 | Quru pektin maddələri, petinatlar və pektatlar<br>aqar-aqar | 5%<br>5% |
| - | **Qrup 19** | - |
| 190110000<br>190190110 | Uşaq yeməkləri qablaşdırılmış<br>Səməni cövhəri | 0<br>5% |
| - | **Qrup 22** | - |
| 2201-2202 | Təbii mineral, qazlı və qazsız sular | 15%; 1 litr üçün<br>0,25 avrodan az olmamaq şərtilə |
| 220300 | Səməni pivəsi | 1 litr üçün<br>0,1 avro |
| 2204 | Tündləşdirilmiş daxil olmaqla təbii üzüm şərabları (2209 mal mövqeyində göstəriləndən başqa) | 1 litr üçün<br>1,3 avro |
| 220410 | Köpüklənən şərablar | 1 litr üçün<br>1,3 avro |
| 220410110 | Şampan şərabı | 1 litr üçün<br>1,5 avro |
| 2205 | Bitki və ya ətirli cövhər əlavə edilmiş vermutlar və digər təbii üzüm şərabları | 1 litr üçün<br>1,0 avro |
| 2206 | Digər acıdılmış içkilər (alma şərabı, armud şərabı, bal içkisi) | 1 litr üçün<br>1,0 avro |
| 220710000 | Tərkibində 80%-dən az spirt olmayan denaturlaşdırılmamış etil spirti | 1 litr üçün<br>1 avro |
| 220720000 | Denaturlaşdırılmış hər hansı bir tərkibdə qatılaşdırılmış etil spirti və digər spirtlər | 1 litr üçün<br>1 avro |

| | | |
|---|---|---|
| 220820 | Üzüm şərabının distillə edilməsi nəticəsində və ya üzümün cecəsindən alınan tünd spirtli içkilər | 1 litr üçün 1,3 avro |
| 220820120 | Konyak | 1 litr üçün 2,0 avro |
| 220830 | Viski | 1 litr üçün 2,0 avro |
| 220840 | Rom və tafiya | 1 litr üçün 2,0 avro |
| 220850 | Çin və ardıc meyvəsindən hazırlanmış içki | 1 litr üçün 2,0 avro |
| 220860 | Vodka | 1 litr üçün 2,0 avro |
| 220870 | Likyorlar və şirin şirələr | 1 litr üçün 2,0 avro |
| 220890110; 220890190 | Araq | 1 litr üçün 2,0 avro |
| 220890330; 220890390 | Likyor istisna olmaqla gavalı, albalı və ya armud spirtli içkiləri | 1 litr üçün 1,3 avro |
| 220890410 – 220890780 | Digər spirtli şirələr və içkilər | 1 litr üçün 1,3 avro |
| 220890910; 220890990 | Tərkibində 80%-dən az spirt olan denaturlaşdırılmamış etil spirt | 1 litr üçün 1 avro |
| 240220 | Tütündən və ya onun əvəzedicilərindən hazırlanmış siqaretlər | 1000 ədəd üçün 1,2 avro |
| - | **Qrup 25** | - |
| 250100310 | Kimyəvi çevirmələr üçün (natriumun və xlorun bölünməsi) sənayedə istifadə edilər duz | 0 |
| 250100510 | Denaturlaşdırılmış və ya sənaye məqsədləri üçün duz | 0 |
| 250200000 | Yanmamış pirit | 0 |
| 250300 | Kükürdün bütün növləri (sublimirilləşdirilmiş, hopdurulmuş və ya kolloidləşdirilmişdən başqa) | 0 |
| 2504 | Təbii qrafit | 0 |
| 250510000 | Kvarslı təbii qum (bütün növləri) | 0 |
| 2506 | Kvars (təbii qumdan başqa) | 0 |
| 250700 | Kaolin və kalsinləşdirilmiş və ya kalsinləşdirilməmiş digər kaolin gilləri | 0 |
| 250830000 | Odadavamlı gil | 0 |
| 2510 | Təbii kalsiy fosfatları (fosforitlər), alüminium-kalsiy fosfatları, fosfat təbaşiri | 0 |
| 2511 | Təbii bariy sulfatı (bariy); kalsiumləşdirilmiş və ya kalsiumləşdirilməmiş təbii bariy karbonatı (viterit) (bariy oksidindən başqa) | 0 |
| 252100000 | Əhəng və sement istehsalı üçün əhəng flyusu | 0 |
| 2528 | Təbii boratlar və onların konsentratları | 0 |
| 253010100 | Perlit | 0 |
| - | **Qrup 26** | - |
| 26 | Filizlər və şlaklar | 0 |
| - | **Qrup 27** | - |
| 270900900 | Yalnız xam neft-tranzit-mübadilə (svop) əməliyyatları üzrə | 0 |
| 271121000 | Təbii qaz | 0 |
| 271220000 | Texniki parafin | 5% |
| 270111100 | Antrosit | 0 |
| 270112100 | Kokslanan kömür | 0 |
| 271000210 | Uayt-spirit | 0 |
| 271600000 | Elektroenerji | 0 |
| - | **Qrup 28** | - |
| 28 | Qeyri-üzvü kimya məhsulları | 0 |
| - | **Qrup 29** | - |
| 29 | Üzvü kimya birləşmələri | 0 |
| - | **Qrup 30** | - |
| 30 | Əczaçılıq məhsulları | 0 |
| 3005 | Pambıq, marlya, bint və analoji məmulatlar | 5% |
| 300640000 | Diş üçün sement | 5% |
| 300650000 | Sanitar sumkaları və ilk yardımın göstərilməsi üçün dərman yığımları | 10% |
| 300390100 | Tərkibində yod və yodbirləşməsi olan dərman vasitələri | 5% |
| - | **Qrup 31** | - |
| 31 | Kübrə | 0 |
| - | **Qrup 32** | - |
| 121290390 | Yalnız poliefir toz rəng | 0 |

| | | |
|---|---|---|
| - | Qrup 36 | - |
| 3601 | Barıt | 5% |
| 3602 | Partlayıcı maddələr | 0 |
| - | Qrup 37 | - |
| 370110100 | Tibbi, stomatoloji və ya baytarlıq məqsədləri üçün fotoplastinlər | 0 |
| 370210000 | Rentgen plyonkaları | 0 |
| - | Qrup 38 | - |
| 3801-3804 | Başqa kimyəvi məhsullar | 0 |
| 3808 | İnsektisidlər, rodentisidlər, funksisidlər, herbisidlər və digər ziyanvericilərə qarşı preparatlar və ya məmulatlar | 0 |
| 3809-3813 | Rənglənmənin sürətləndiriciləri, metalik səthlərin təmizlənməsi üçün vasitələr, antidetonatorlar, kauçuk vulkanlaşdırma sürətləndiriciləri | 0 |
| 381512000 | Kimyəvi reaksiyaların katalizatorları | 0 |
| - | Qrup 39 | - |
| 390110100; 3901200000; 3902-3914; 392030000 | Polimer materialları | 0 |
| 3922-3924 | Plastik məmulatlar | 15% 1 kq 0,15 avrodan az olmamaq şərtilə |
| 392330 | Butulkalar | 0 |
| 392350100 | Probkalar | 0 |
| - | Qrup 40 | - |
| 4001-4008 | Kauçuk | 0 |
| 4012 | Bərpa və ya istifadə olunmuş pnevmatik rezin şinlər | 1 ədəd üçün 10 avro |
| 401199100 | Kənd və meşə təsərrüfatında istifadə olunan mexanizmlər üçün şinlər (traktorlar, kombaynlar, biçin və toxum səpən maşınlar) | 0 |
| 401693900 | Yalnız maqnitli rezin lent | 0 |
| - | Qrup 44 | - |
| 44 | Oduncaq və oduncaq məmulatları | 10% |
| 4406 | Dəmir yolu üçün şpallar | 5% |
| - | Qrup 45 | - |
| 45 | Mantar (tıxac) | 0 |
| - | Qrup 47 | - |
| 470100-4706 | Oduncaqdan və ya digər lifli sellüloza materiallarından kağız, karton kütlələri | 0 |
| - | Qrup 48 | - |
| 4801 | Qəzet üçün kağız | 5% |
| 4804-4805 | Karton | 5% |
| 4821 | Etiketlər | 5% |
| - | Qrup 49 | - |
| 4901-4905 | Çap olunmuş kitab, qəzet və jurnallar, uşaqlar üçün kitab-şəkillər, rəsm və ya rənglənməsi üçün kitab-dəftərlər, notlar, xəritələr və atlaslar, qlobuslar | 0 |
| 490700300 - 490700990 | Qiymətli kağızlar | 0 |
| - | Qrup 51 | - |
| 510121000 | Karbonizə edilməmiş, yuyulmuş, qırxılmış yun | 5% |
| - | Qrup 52 | - |
| 520544000 | Xətti sıxlığı 12,5 teksdən 19,231 teksə qədər olan birsaplı pambıq iplikləri | 5% |
| 520546000 | Xətti sıxlığı 10,638 teksdən 12,5 teksə qədər olan birsaplı pambıq iplikləri | 5% |
| 520547000 | Xətti sıxlığı 8,33 teksdən 10,638 teksə qədər olan birsaplı pambıq iplikləri | 5% |
| - | Qrup 54 | - |
| 540231 | Neylon və ya digər poliamidlərdən sintetik kompleks sapları | 0 |
| 540233 | Poliefir sintetik kompleks sapları | 0 |
| 540239 | Digər sintetik kompleks saplarından yalnız nitron ştapel sapı | 0 |
| 5403 | Yüksəkdavamlı burulmuş və ya burulmamış sintetik kompleks sapları | 0 |
| - | Qrup 59 | - |

| | | |
|---|---|---|
| 5902 | Yüksəkdavamlı poliamid, poliefir, saplardan toxunmuş kord parçaları | 5% |
| - | **Qrup 68** | - |
| 681410000 | Slyuda lövhələri | 5% |
| - | **Qrup 69** | - |
| 6902-6903 | Odadavamlı kərpic | 5% |
| - | **Qrup 70** | - |
| 700100 | Şüşə sınıqları | 0 |
| 701911000 - 701919900 | Şüşə plastik civlər | 5% |
| 7002 | Şar formasında şüşələr | 0 |
| 701010000 | Ampul | 0 |
| 7010 | Vutulkalar, bankalar və digər şüşə həcmləri | 0 |
| 701110 | Yalnız elektrik lampalarının istehsalı üçün idxal olunan şar və boru formasında olan şüşə kolbalar | 0 |
| 701990300 | İzoləedici şüşə plastik civlər | 5% |
| - | **Qrup 71** | - |
| 710210100 | Almazlar (çeşidləşdirilməmiş) | 0 |
| 711510000 | Platindən məftil, tor və ya reşotka formasında olan katalizatorlar | 0 |
| 711021000 | Palladiy | 0 |
| - | **Qrup 72** | - |
| 72 | Qara metallar | 5% |
| 7201 | Çuqun | 0 |
| 720927100 | "Elektrotexniki" polad | 0 |
| - | **Qrup 73** | - |
| 73 | Qara metallardan məmulat | 5% |
| 7302 | Dəmir yolu və ya tramvay yolu üçün məmulatlar, relslər | 0 |
| 730810000 | Körpülər və onların seksiyaları | 0 |
| 730840900 | Tikintidə istifadə olunan metal dayaqlar, bərkidici məmulatlar | 10% |
| 730890100 | Şlüzlər, şlüz qapıları, doklar və digər dəniz və gəmiçilik konstruksiyaları | 0 |
| 730900-7315 | Rezervuarlar, sisternlər, metal bankalar, izolyasız metal məftillər, troslar, kanatlar, metal parçalar, torlar, zəncirlər | 10% |
| 7322 | Mərkəzi qızdırıcı sistem üçün radiatorlar | 5% |
| 7323 | Məişət məmulatları | 15% |
| 7324 | Qara metallardan sanitar-texniki avadanlıqlar | 15% |
| 732410100; 732490100 | Mülki aviasiya üçün qara metallardan sanitar-texniki avadanlıqlar və onların hissələri | 10% |
| - | **Qrup 74** | - |
| 7401-7407 | Mis | 0 |
| 7412 | Mis boruları | 0 |
| 740811000 | Mis məftilləri, en kəsiyi 6 mm-dən yuxarı | 5% |
| 741300 | Kabel məhsulları | 5% |
| - | **Qrup 75** | - |
| 75 | Nikel | 0 |
| - | **Qrup 76** | - |
| 7601-7608; 760900000 | Alüminium və alüminium lövhələri, məftilləri | 5% |
| - | **Qrup 78** | - |
| 78 | Qurğuşun | 5% |
| - | **Qrup 79** | - |
| 79 | Sink | 0 |
| - | **Qrup 80** | - |
| 80 | Qalay | 0 |
| - | **Qrup 81** | - |
| 81 | Başqa adi metallar (volfram, molibden, tantal, kadmium, titan, sirkoniy, xrom, qermanium) və onlardan hazırlanmış məmulatlar | 0 |
| - | **Qrup 83** | - |

| | | |
|---|---|---|
| 8309 | Adi metallardan probkalar, qapaqlar | 0 |
| - | **Qrup 84** | - |
| 8401-8409 | Nüvə reaktorları, mərkəzi istilik sistemi qazanları və onların yardımçı avadanlıqları, qazoqeneratorlar, turbinlər, daxili yanacaq mühərrikləri, onların hissələri | 0 |
| 840991000;<br>840999000 | Mühərriklərin hissələri | 0 |
| 8410-8412 | Hidro və qazturbinləri, turboreaktiv və hidroreaktiv, pər və hidravlik mühərriklər | 0 |
| 8413 | Maye nasosları | 5% |
| 841340000 | Beton nasosları | 5% |
| 841330100;<br>841350100 -<br>841370990 | Mülki aviasiya üçün hidravlik və digər nasoslar, mərkəzəqaçma bir və çoxmərhələli nasoslar | 0 |
| 841430 | Kompressorlar | 0 |
| 841480100-80710 | Turbo və rotorlu həcmli kompressorlar | 5% |
| 841590100 | 841581, 841582 və ya 841583 mal mövqelərindəki kondisioner qurğularının hissələri | 5% |
| 84178 | Qeyri-elektrik sənaye və laboratoriya sobaları, kameraları | 0 |
| 41810990 | Yalnız məişət soyuducuları üçün buxarlandırıcı panel | 5% |
| 841911000 -<br>841960000 | Ətalətsiz su qızdırıcıları və ya istilik su yığıcıları (akkumulyatorları) | 5% |
| 841989100 -<br>841990950 | Soyuducu və qızdırıcı qurğular | 0 |
| 8420 | Kalandrlı və başqa vallı (rolikli) maşınlar | 0 |
| 842220000 -<br>842240000 | Butulka və digər qabların yuyulması üçün avadanlıq | 5% |
| 842481-842490000 | Maye və toz səpələyən mexaniki qurğular,<br>yanğın söndürücülər | 0<br><br>0 |
| 8425 | Qaldırıcı qurğular | 5% |
| 842511-842539910 | Qaldırıcı tallar və qurğular | 0 |
| 8426 | Gəmi derrik-kranları və digər qaldırıcı kranlar | 0 |
| 8427 | Avtoyükləyicilər və qaldırıcı və yükləmə-boşaltma qurğuları olan digər avtoyükləyicilər | 5% |
| 8428 | Qaldırıcı və yer dəyişdirici maşınlar və qurğular (məsələn: liftlər, eskalatorlar, konveyerlər, kanat yolları) | 0 |
| 8429 | Buldozerlər, avtoqreyderlər, ekskavatorlar, skreperlər, hamarlayıcı maşınlar | 0 |
| 8430 | Torpağın planlaşdırılması, hamarlaşdırılması, qazılması, faydalı qazıntıların və ya filizlərin götürülməsi, qar təmizlənməsi üçün istifadə olunan maşın və mexanizmlər | 0 |
| 8431 | 8425-8430 mal mövqelərində göstərilən avadanlıq hissələri | 0 |
| 8432-8436 | Torpağın hazırlanması və işlənməsi üçün kənd təsərrüfatı, bağ və ya meşə təsərrüfatı maşınları, kənd təsərrüfatı məhsullarının yığılması və ya döyülməsi, saman və ot yığıcı, bərkidici, yumurta və digər kənd təsərrüfatı məhsulları çeşidləyici maşın və mexanizmləri, quşçuluq, arıçılıq, südçülük avadanlıqları | 0 |
| 8437 | Toxum və taxıl bitkilərinin təmizlənməsi üçün maşınlar, un sənayesi, taxıl və ya digər dənli bitkilərin emalı üçün avadanlıq | 0 |
| 8438 | Yeyinti sənayesi üçün avadanlıq | 0 |
| 8439-8444 | Bitki mənşəli materialların liflərindən kütlənin və ya kağız, kartonun istehsalı, kağız, karton məmulatlarının hazırlanması üçün avadanlıq, mətbəə avadanlıq | 0 |
| 8445-8449 | Toxuculuq, iplik əyirici sənayesi üçün avadanlıq | 0 |
| 8453-8466 | Dəri aşılamaq üçün avadanlıq, metal emalı üçün dəzgahlar | 0 |
| 8471 | Elektron hesablayıcı maşınları | 5% |
| 847330100 | Elektron bloklar | 5% |
| 8474-8475 | Mineral qazıntılar üçün avadanlıq | 0 |
| 8477-8480 | Rezin və ya plastmas, tütün istehsalı üçün avadanlıq, xüsusi təyinatlı maşın, mexanizmlər, metal tökmə formaları, modelləri | 0 |
| 848250000 | Yalnız lokomotivlər, vaqonlar, tramvaylar üçün istehsal edilmiş şar-rolikli yastıqlı diyircək komplektləri | 0 |
| 8483 | Transmisiya valları, diskli təkərlər, reduksiya mexanizmləri, muftalar və digər mexanizm hissələri | 0 |
| 8484-8485 | Metal aralıq və doldurucuları, gəmi vintləri və onun hissələri | 0<br>0 |
| - | **Qrup 85** | - |
| 850120 | Universal dəyişən daimi cərəyan mühərrikləri (gücü 735 vt-dan yuxarı 150 kvt-a qədər) | 0 |

| | | |
|---|---|---|
| 850131100 | Mülki aviasiya üçün daimi cərəyan generatorları | 0 |
| 850132100 | Mülki aviasiya üçün mühərriklər və generatorlar (gücü 750vt-dan 75 vt-a qədər) | 0 |
| 850133-850134;<br>850151100;<br>850152100 | Elektrik mühərrikləri (mülki aviasiya üçün) | 0 |
| 850153 | Gücü 75 kvt-dan yuxarı olan elektrik mühərrikləri | 0 |
| 850211100 | Mülki aviasiya üçün gücü 75 kvt-a qədər olan elektrogenerator qurğuları | 0 |
| 850212-8513 | Gücü 75 kvt-dan yuxarı elektrogenerator qurğuları | 0 |
| 850220100 | Mülki aviasiya üçün daxili yanacaq mühərrikləri olan elektrogeneratorlar | 0 |
| 850239 | Turbogeneratorlar, mülki aviasiya üçün digər elektrogeneratorlar | 0 |
| 850240 | Fırlanan elektrik çeviriciləri | 0 |
| 850300 | 8501 və ya 8502 mal mövqeləri üçün hissələr | 0 |
| 8504-8505 | Transformatorlar, elektrik çeviriciləri, elektromaqnitlər | 0 |
| 8506 | İlkin elementlər | 5% |
| 8514 | Sənaye və laboratoriyalar üçün elektrik soba və kameralar | 0 |
| 851410100-851410900 | Çörək bişirmə və qənnadı sobaları | 10% |
| 851730000;<br>851750100; | Telefon və teleqraf rabitəsi üçün kommutatorlar, aparıcı tezlikdə xətli rabitə və ya rəqəmli xətli rabitə sistemləri üçün aparatlar 851750100 mal mövqeyi üçün hissələr | 5% |
| 851790;<br>852290910 | Elektron blokları, hissələri və ləvazimatları | 5% |
| 852510 | Radiotelefon, radioteleqraf, radioyayım, televiziya ötürücü aparatura | 0 |
| 852520100 | Mülki aviasiya üçün teleqraf və ya telefon radioaparaturası | 0 |
| 852530 | Televiziya kameraları | 5% |
| 8526 | Radiolokasiya, radionaviqasiya avadanlıqları, uzaqdan idarəedilən radioaparatlar | 0 |
| 852990700 | Elektrik bloklar (8525-8528 mal mövqeləri üçün) | 3% |
| 8530 | Elektrik siqnalizasiya qurğuları | 3% |
| 8531 | Yalnız hava limanlarının təhlükəsizliyini təmin etmək üçün onların ərazisinin perimetri boyu elektron mühafizə hasarı sisteminin tərkibinə daxil olan cihazlar, avadanlıqlar və materiallar | 0 |
| 8532 | Elektrik kondensatorları | 3% |
| 8533; 8535-8536 | Rezistorlar, elektrik şəbəkələrinin qoruyucuları | 3% |
| 8537 | Elektrik avadanlıqları üçün kommutasiya pultları, panelləri | 3% |
| 8538 | Ehtiyat hissələri (8535, 8536 və ya 8537 mal mövqeləri üçün) | 3% |
| 853990100 | Lampaların sokolları | 0 |
| 8540-8543 | Elektron lampaları və boruları, tranzistorlar, inteqral və mikrosxemlər, mikroprosessorlar, yaddaş qurğuları, maşınlar və digər elektrik cihazları | 3% |
| 854212000 | Elektron inteqral sxemləri ilə kartoçkalar ("intellektual" kartoçkalar) | 15% |
| - | **Qrup 86** | - |
| 86 | Lokomotivlər | 0 |
| - | **Qrup 87** | - |
| 8701 | Traktorlar | 0 |
| 870210190;<br>870210990;<br>870290190;<br>870290390 | Sərnişin daşınması üçün avtomobillər (zavod-buraxılış tarixi 1 ildən 3 ilə qədər) | 15%<br>lakin 1 kub.sm<br>0,6 avrodan az<br>olmamaq<br>şərtilə |
| 870210190;<br>870210990;<br>870290190;<br>870290390 | Sərnişin daşınması üçün avtomobillər (zavod-buraxılış tarixi 3 ildən 5 ilə qədər) | 15%<br>lakin 1 kub.sm<br>1 avrodan az olmamaq şərtilə |

| | | |
|---|---|---|
